AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI 1995

Azərbaycan Respublikası, Bakı şəhəri, Nəsimi rayonu, Mir-Qasımov küç. 3.131.

Tel: 012 440 25 28
012 441 13 15
Mob: 050 222 46 77
e-mail: emil@auditor.az

# Auditor rəyi

"Meqa Sığorta" Açıq Səhmdar Cəmiyyətinin
İdarə Heyətinə

Mən, sərbəst auditor Emil Nizami oğlu Məmmədov (Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən 13 fevral 2013-cü il tarixdə verilmlş SA/205 qeydiyyat saylı 072760 №-li lisenziya) ilə "Meqa Sığorta" Açıq Səhmdar Cəmiyyəti arasında bağlanmış 2014-cü il 21 yanvar tarixli 01 saylı müqaviləyə əsasən "Meqa Sığorta" Açıq Səhmdar Cəmiyyətinin 2013-cü il üzrə Balans hesabatının, bu tarixdə bitən il üzrə müvafiq Mənfəət və zərər, Pul vəsaitlərinin hərəkəti və İştirakçı kapitalında dəyişikliklər hesabatlarının auditini apardım.

Audit 2014-cü il 21 yanvar tarixdə başlayıb 05 fevral tarixində başa çatdı.

Cəmiyyətin rəhbərliyi göstərilən maliyyə (mühasibat) hesabatlarının milli mühasibat uçotu standartlarına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi üzrə məsuliyyət daşıyır.

Həmin məsuliyyətə fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli səhvlər olmayan maliyyə (mühasibat) hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarətin təşkili, tətbiqi və saxlanması; müvafiq uçot siyasətinin seçilməsi və tətbiqi; və müvafiq şəraitə münasib olan uçot ehtimallarının müəyyən edilməsi daxildir.

Mənim vəzifəm apardığım audit əsasında həmin maliyyə (mühasibat) hesabatları üzrə rəy ifadə etməkdir. Mən auditi beynəlxalq audit standartlarına uyğun aparmışam. Bu standartlar məndən etik normalara riayət etməyi və auditin planlaşdırılması və aparılmasını maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə kifayət qədər əmin olacaq tərzdə həyata keçirməyi tələb edir.

Auditə maliyyə (mühasibat) hesabatlarında göstərilən məbləğlər və açıqlamalar barədə audit sübutunun əldə ediməsi üçün prosedurların həyata keçirilməsi daxildir. Seçilmiş prosedurlar, eləcə də fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, maliyyə (mühasibat) hesabatlarının əhəmiyyətli səhvlər riskinin qiymətləndirilməsi mənim mülahizələrim əsasında aparılmışdır. Auditə, həmçinin, tətbiq edilmiş uçot prisiplərinin və cəmiyyətin rəhbərliyi tərəfindən edilmiş mühüm ehtimalların qiymətləndirilməsi, o cümlədən ümumilikdə maliyyə (mühasibat) hesabatlarının təqdim edilməsi üzrə qiymətləndirmənin araşdırılması daxildir.

Mən hesab edirəm ki, əldə etdiyim auditor sübutları rəy bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

Mənim fikrimcə, 2013-cü il üzrə cəmiyyətin maliyyə (mühasibat) hesabatları milli mühasibat uçotuna uyğun olaraq düzgün və ədalətli təsəvvür yaradır.

Rəy 2014-cü il 05 fevral tarixində eyni qüvvəyə malik iki nüsxədə tərtib edilmişdir. Bunlardan biri sifarişçi təsərrüfat subyektində, ikincisi isə auditorda saxlanılır.

Azərbaycan Respublikası
Auditorlar Palatasının üzvü
Sərbəst auditor

Emil Nizami oğlu Məmmədov
Sərbəst auditor
Independent Auditor

E.N.Məmmədov